Ədəbiyyat qəzeti

# Canavar dişi

## İkihissəli qəhrəmanlıq dramı



**İFTİXAR**

*(Əvvəli ötən saylarımızda)*

### İKİNCİ HİSSƏ

***İştirak edirlər:***
*Azərbaycan əsgəri*
*Erməni əsgəri*
*Südəmər körpə*
*Komandir*
*Qadın*
*Muzdlu zənci zabit*
*Muzdlu zənci əsgər*

**Azərbaycan əsgəri:** - Bilirəm, vəhşilik... öldürmək... dağıtmaq...

*Bu dəmdə ocağın ətrafına qədər yaxınlaşmış canavarlar mırıldamağa başlayırlar.*

**Erməni əsgəri:** - Yenə də gəldilər... *(cəld ocaqdan bir kösöv götürüb canavarlara tərəf gedir)* Biz bu canavarların dişlərindən necə qurtaracağıq?

*Canavarlar sanki kəşfiyata gəlmişdilər. Erməni əsgərinin əlindəki kösövü gördükdə geri çəkilirlər.*

**Azərbaycan əsgəri:** - Lənət olsun...

**Erməni əsgəri:** - Səhərə qədər birtəhər dözmək lazımdı, səhər bizimkilər məni axtaracaqlar, yəqin taparlar...

**Azərbaycan əsgəri:** - Sizinkilərin dişinə keçməkdənsə, mən bunlara yem olaram...

**Erməni əsgəri:** - Sən bilirsən...

Azərbaycan əsgəri: - Lənət olsun sənə... Hardan gəlib çıxdın?.. Onsuz da bəladaydım, məni yeni bəlaya saldın...

*Körpə bir anlıq ağlayır və dərhal da səsini kəsir. Azərbaycan əsgəri tez körpənin üzündəki örtüyü götürür və ona diqqət edir.*

**Azərbaycan əsgəri:** - Yuxuda ağlayır... Yazıq zavallı... Dünyadan xəbəri yoxdu...

**Erməni əsgəri:** - Üzünü ört, ocağın işığı gözünə düşməsin, oyanar...

**Azərbaycan əsgəri:** - Sən haralısan?

**Erməni əsgəri:** - Mən erməniyəm...

**Azərbaycan əsgəri:** - *(hirslə)* Görürəm ki, ermənisən, haralısan deyirəm?

**Erməni əsgəri:** - Bizdə "haralısan?" anlayışı yoxdu. "Hayes?.. türkes?.. Hayes!" vəssalam.

**Azərbaycan əsgəri:** - Lənət sənə, kor şeytan... Hayes, yox bir cartes... Ay hayes erməni, harda yaşayırsan?

**Erməni əsgəri:** - Tiflisdə.

**Azərbaycan əsgəri:** - Tiflislisən?.. Hmm... Tiflisli... Tiflisli ermənininin buralarda nə ölümü var?..

**Erməni əsgəri:** - Bura mənim vətənimdi, ona görə də burda ölməyə gəlmişəm...

**Azərbaycan əsgəri:** - *(hirslə)* Bura sənin vətənin necə ola bilər, ay dığa? Sən ki, tiflislisən...

**Erməni əsgəri:** - Mən Əsgəranda doğulmuşam.

**Azərbaycan əsgəri:** - Əsgəranda?

**Erməni əsgəri:** - Bəli, Əsgəranda. Üç yaşım olanda Yerevana köçmüşük. Sonra da Tiflisə.

**Azərbaycan əsgəri:** - Niyə?

**Erməni əsgəri:** - Atamın yerevanlı afrist bir dostu varmış. Hər dəfə bizə qonaq gələndə atama Yerevanda "bağ-bostan", "cah-cəlal" söz verirmiş. Atam da onun sözü ilə bizi Yerevana köçürüb. Amma biz köçən kimi dələduz qaçıb-gizlənib, bizim də vəziyyətimiz çox pisləşib. Üç il atam işsiz qalıb, geri dönməyi də özünə ar hesab eləyib, demək olar ki, dilənçi vəziyyətinə düşübmüşük... Anam bu dərddən xiffət eləyib dünyasını dəyişdi... Onda mənim altı yaşım var idi, hər şey indiki kimi yadımdadı... Atamın tiflisli bir gürcü dostu - Vaxtanq... dəfnə gəlmişdi. Vəziyyəti biləndən sonra təkidlə atamı Tiflisə dəvət elədi. Atam bu dəfə də gürcü dostunun sözü ilə bizi Tiflisə köçürdü. Vaxtanq sözünə sahib çıxdı. Atamı ixtisası üzrə olmasa da, Tiflisdə bir erməni dostunun praflaktoriyasında işə düzəltdi. Əvvəl-əvvəl atama çox çətin oldu. Əli işə yatana qədər... Təsəvvür elə, fizika müəllimi, birdən-birə profilaktoriyada maşın elektriki...

**Azərbaycan əsgəri:** - *(yerindən dik qalxır. Təəccüblə)* Sənin atan fizika müəllimi idi?

**Erməni əsgəri:** - Hə, fizika müəllimi...

**Azərbaycan əsgəri:** - *(Yenə də təəccüblə, öz-özünə donquldanaraq oturur)* Həə... Fizika müəllimi...

**Erməni əsgəri:** - Çətin idi... Amma ordakı adamlar atamı çətinə düşməyə qoymadılar. Hər cür köməklik göstərdilər. Onların içində gürcü də var idi, erməni də; azərbaycanlı da var idi, asetin də; acar da var idi, kürd də; svan da var idi, yunan da... daha nə bilim, kimlər-kimlər... Hamımız da bir-birimizin dilini ana dilimiz kimi bilirdik...

**Azərbaycan əsgəri:** - *(düşüncələr içində)* Deyirəm axı, bizim dili yaxşı bilirsən...

**Erməni əsgəri:** - O biri dilləri öyrənəndə bir az çətinlik çəkdim, amma sizin dili çox asanlıqla öyrəndim... Hətta məhlədə sizin uşaqlarla ünsiyyətdə olanda çoxu məni də sizinkilərdən hesab eliyirdi.

**Azərbaycan əsgəri:** - Bizim dili Sayat Novanız da yaxşı bilirdi, çox sevirdi bizim dili...

**Erməni əsgəri:** - Bilirəm, sizin dildə xeyli şeirlər də yazıb.

**Azərbaycan əsgəri:** - Tiflis - internasional şəhər... Görünür, millətindən asılı olmayaraq onların hamısı yaxşı insanlar imiş...

**Erməni əsgəri:** - Getdikcə o adamların köməyilə vəziyyətimiz düzəldi. Hətta sonralar atam həmin profilaktoriyanın sahibi oldu... Mən də orta məktəbi bitirdim. Universitetə daxil oldum. Fizika fakültəsinə. Sonra oxumağı buraxdım, atamın yanında elektrik işləməyə başladım.

**Azərbaycan əsgəri:** - Bəs necə oldu ki, birdən-birə əclaf oldun?

**Erməni əsgəri:** - *(tərs-tərs baxır)* Sözünə sərhəd qoy, əclaf özünsən... Mən heç vaxt əclaf olmamışam...

**Azərbaycan əsgəri:** - Əclaf deyilsən, bəs nəsən... Neçə nəfəri qanına qəltan eləyibsən?

**Erməni əsgəri:** - Bu müharibədi, öldürməsən, öldürəcəklər...

**Azərbaycan əsgəri:** - Sənin bu müharibədə nə işin var?..

**Erməni əsgəri:** - Mən vətənim uğrunda müharibəyə cəlb olunmuşam.

**Azərbaycan əsgəri:** - Bura sənin vətənin deyil, ay erməni!.. Bura mənim vətənimdi!

**Erməni əsgəri:** - Sən elə bilirsən, mən də belə bilirəm... Sən də vuruşursan, mən də... kim güclüdü, vətən onundu... Sizinkilər deyir: "Torpaqda ölən varsa, vətəndi!" Bizimkilər...

**Azərbaycan əsgəri:** - *(sözünə düzəliş edir)* Gül kimi şeirin qolunu-qanadını qırma. *(Pafosla)* "Bayraqları bayraq edən, üstündəki qandır!

Torpaq uğrunda ölən varsa, vətəndər!" - demişik biz.

**Erməni əsgəri:** - Nə fərqi var? Hingis-hingis, das hingis. Əsas odur ki, fikir düz deyil...

**Azərbaycan əsgəri:** - Niyə düz deyil, ay erməni?

**Erməni əsgəri:** - "Torpaq uğrunda ölmək yox, öldürmək lazımdı!" - deyilməlidi... Çünki torpaq ölənin yox, öldürənindi, ay musurman, bildin?

**Azərbaycan əsgəri:** - Biz insana qıya bilmirik... bunun əleyhinəyik...

**Erməni əsgəri:** - Biz də əleyhinəyik... Amma torpaq məsələsində güzəşt olmaz...

**Azərbaycan əsgəri:** - Düz deyirsən, kül bizimkilərin gözünə, sizə torpaq bağışladıqları yerdə... Ay erməni, dünyada hər şey Allahındı, torpaq da, su da, hava da, biz də... Alan da Allahdı, verən də...

**Erməni əsgəri:** - Siz elə bilirsiniz, biz də belə bilirik... Siz öz bildiyinizi bilin, biz də öz bildiyimizi... Siz torpaq uğrunda ölməyi üstün tutun, biz də almağı, görək, Allah kimə verəcək...

**Azərbaycan əsgəri:** - Ay başının ağrısını bilməyən erməni, anlamırsanmı ki, bir təsadüfi güllənin qurbanı ola bilərsən, onda uğrunda nahaq qan axıtdığın bu torpaq səni diriltdəcək?

**Erməni əsgəri:** - Düzdü, diriltməyəcək, amma torpaq bizim olacaq...

**Azərbaycan əsgəri:** - Torpağı meyitinin gözünə tökəcəklər?

**Erməni əsgəri:** - *(bir qədər susur)* Biz vətənimizi türklərin əlindən geri qaytarmalıyıq, vəssalam...

**Azərbaycan əsgəri:** - Dünyada nə qədər erməni var?

**Erməni əsgəri:** - Doqquz milyona çathaçatdadı.

**Azərbaycan əsgəri:** - Şişirtmə, o qədər ermənini heç yuxunuzda da görə bilməzsiniz.

**Erməni əsgəri:** - Bu bizim təşkilatın statistikasıdı, o təşkilatın yalanı olmur.

**Azərbaycan əsgəri:** - Sizin təşkilatlarınızın məsləki yalan üzərində qurulub... Qarabağ məsələsində də min cür yalanlar uydurur.

**Erməni əsgəri:** - Heç bir uydurmamız yoxdu, Qarabağ bizimdi, tezliklə də əlinizdən alacağıq...

**Azərbaycan əsgəri:** - *(hirslə)* Tutalım ki, istədiyiniz kimi Qarabağı da o biri yerlərimiz kimi bizdən qopardınız... Bu mümkün olan iş deyil, ha... amma deyək ki, mümkün oldu... Siz bütün dünyadakı ermənilərin hamısını bu torpaqlara gətirə biləcəksiniz?

**Erməni əsgəri:** - Əlbəttə ki, yox... Heç lazım da deyil...

**Azərbaycan əsgəri:** - Bəs lazım deyilsə, bu qədər torpaq nəyinizə gərəkdi, ay erməni dığası... Təşkilatınızın uydurduğu doqquz milyon ermənininin hamısını 1918-ci ildə liderlərimizin yüz illik icarə adı ilə sizə bağışladığı torpaqlarda yerləşdirsəniz, yenə də torpaqların bir qismini ancaq doldura bilərsiniz, bəs Qarabağda kiminiz yaşayacaq?.. Bu qədər qan axıtmaq, həm sizdən, həm bizdən bu qədər insanı öldürmək, şikəst eləmək, yetim qoymaq, zəlil eləmək qansızlıq deyilmi? Vəhşilik deyilmi? Canavarlıq deyilmi?..

**Erməni əsgəri:** - Biz "Böyük Hayastan" uğrunda vuruşuruq...

**Azərbaycan əsgəri:** - Ay erməni, "Böyük Hayastan" tilsimi ilə sizi tora salan siyasət canavarları sizi itilənmiş qablama dişlər kimi öz çürük dişlərinin yerinə taxıb gəmirmək üçün istifadə eləyirlər... Unutma ki, təsadüfi bir güllə hər şeyi həll eliyir, siyasət dəllalları isə ölənin yerinə yeni iti diş axtarışında olurlar.

**Erməni əsgəri:** - Biz müqəddəs ideya uğrunda savaşırıq, onu bilirik ki, bu yolda ölüm də var...

**Azərbaycan əsgəri:** - Müqəddəs olan bütün ideyalar ancaq müqəddəs əməllərə xidmət eliyir. Ölüm törədilən yerdə müqəddəslikdən danışmaq olmaz. Mən bilirəm ki, sizin siyasət canavarlarınız bütün erməni xalqını bu cür manqurdlaşdıra bilməyiblər... Sən niyə manqurdsan?.. Bilirəm ki, sizin Zori Balayan, Silva Kaputikyan kimi çürük dişlərinizlə bərabər, Armen Ciqarxanyan, Paracanov kimi sağlam düşünənləriniz də var.

**Erməni əsgəri:** - Paracanov?.. Sergey?..

**Azərbaycan əsgəri:** - Bəli, həmin Sergey Paracanov.

**Erməni əsgəri:** - Hə... Sergey... Tiflisdə yaşayırdı, atamın dostu idi. Maşınına atam baxardı... Sən onu hardan tanıyırsan?

**Azərbaycan əsgəri:** - Onu bütün dünya tanıyır... Mən Paracanovu şəxsən tanımıram, amma onu bilirəm ki, 1989-cu ildə, hadisələrin təzə qızışdığı vaxtda Paracanov Azərbaycana gəldi, bizim xalq dastanımız olan "Aşıq Qərib" haqqında Azərbaycanda film çəkdi. Filmin musiqisini bəstələmək üçün isə bütün dünya bəstəkarlarının arasından bizim bəstəkarı seçdi, Cavanşir Quliyevi.

*(Davamı gələn sayımızda)*